# KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA ELMLƏRİNİN FƏNLƏRARASI TƏBİƏTİ

***Şahanə Müqəddəs qızı Şahbazova,***

*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Z.M.Bünyadov ad. Şərqşünaslıq İnstitutu,*
*böyük elmi işçi*
*shahaneshahbaz@gmail.com*

***Açar sözlər:*** *kitabxanaşünaslıq, informasiya elmləri, elmi nəzəriyyələr*
***Ключевые слова:*** *библиотечное дело, информационные науки, научные теории*
***Keywords:*** *library science, information sciences, scientific theories*

**Xülasə:** İstənilən elm sahəsi müxtəlif ixtisaslar arasında qarşılıqlı əlaqə platforması tələb edir. Müasir dövrdə fənn sahələrinin ixtisaslaşması ilə əlaqədar olaraq istənilən tədqiqatda fənlərarası əlaqələr labüdləşir. Kitabxanaşünaslıq və informasiya elmləri digər elmlər kimi özünəməxsus nəzəri əsaslara malikdir. Hazırkı tədqiqat bu fənn üzrə mövcud nəzəriyyələri araşdırmaqla bu nəzəriyyələrin köklərini və mənşəyini kəşf etmək, kitabxanaşünaslıq və informasiya elmlərinin fənlərarası xarakterini müəyyən etmək mahiyyəti daşıyır.

**Резюме:** Любая область науки требует платформы взаимодействия между различными специальностями. В связи со специализацией дисциплин в наше время в любых исследованиях необходимы междисциплинарные связи. Библиотековедение и информатика, как и другие науки, имеют свои теоретические основы. Текущее исследование направлено на выявление корней и истоков этих теорий путем изучения существующих теорий по этому вопросу, а также на определение междисциплинарного характера библиотечного дела и информатики.

**Summary:** Any scientific field requires a platform of interaction between different specialties. Due to the specialization of disciplines in modern times, interdisciplinary relations have become indispensable in any research. Library science and information science, like other sciences, have their own theoretical foundations. The current research aims to discover the roots and origins of these theories by examining the existing theories on this subject and to determine the interdisciplinary nature of library science and information science.

**Giriş:** Kitabxanalar qədim zamanlardan mövcud olub, lakin XIX əsrin ikinci yarısında kitabxanaşünaslıq ayrıca tədqiqat sahəsi kimi meydana çıxmışdır. XX əsrdə isə elmin inkişafı ilə o, tədricən informasiya elminin daha geniş sahəsinə daxil edilir.

İnformasiya elmi məlumatın saxlanması və ötürülməsi prosesləri ilə məşğul olan sahədir. XX əsrdə informasiyanın toplanması, təşkili və axtarışı sahəsində inkişaf kitabxanaların istiqamətini dəyişərək, müxtəlif müəssisə və təşkilatlara, eləcə də ayrı-ayrı şəxslərə kitabxananın və kitabxana işçisinin iştirakı olmadan informasiya axtarışlarını həyata keçirməyə imkan verdi. Nəticədə universitetlər kitabxanaşünaslıq və informasiya elmləri üzrə vahid proqramlar təklif etməyə başladılar [2].

**Kitabxanaşünaslıq və informasiya elmləri üzrə nəzəriyyələr.** İyirminci əsrin başqa yeni elm sahələri kimi kitabxanaşünaslıq sahəsi də ixtisaslarla bağlı elmdir. Bu elmi həmin xüsusiyyətin mahiyyətini anlamadan tədqiq etmək lazımi nəticəni verməz. Bu mənada bu elm sahəsinə dair nəzəriyyələrin bəzisi ilə tanış olaq:

Müraciət xidmətləri sahəsində ekspert olan Samuel Roşteyn bu sahədə minimal, maksimal və orta hədd nəzəriyyəsini yaratmışdır. Onun minimal nəzəriyyəsi kitabxanaçının qorxusu və özünəinamın aşağı olmasına əsaslanır və o göstərir ki, bu halda kitabxanaçı oxucuya ən aşağı dərəcədə kö-

məklik göstərir. Maksimal nəzəriyyədə xidmət sahəsində çalışan kitabxanaçı öz işini çox yaxşı bilir və müraciət edənə lazımi xidməti göstərir. Orta hədd nəzəriyyəsi yuxarıdakı iki nəzəriyyə üzərində qərar tutub və bu halda kitabxanaçı şəraitə əsasən qərar verir ki, müraciət edən şəxsə hansı səviyyədə kömək etsin.

Bir telefon şirkətində mühəndis olmuş Klod Elvud Şennon (ing. Claude Elwood Shannon, 1916–2001) 1948-ci ildə informasiya nəzəriyyəsini irəli sürmüşdür və 1949-cu ildə öz məqaləsini Amerikan riyaziyyatçısı Varen Viverin (Warren Weaver) rabitə nəzəriyyəsi barəsində məqaləsi ilə birgə “Rabitənin riyazi nəzəriyyəsi” adlı bir kitabda nəşr etdirmişdir. Məlumdur ki, bu nəzəriyyənin kökləri rabitə mühəndisliyi elmlərindədir. Şanon da rabitə mühəndisliyi sahəsində əhəmiyyətli olan amillərdən istifadə edərək öz informasiya nəzəriyyəsini yaratmışdır.

Bu sahədə informasiya axtarışında hazırda geniş istifadə olunan vektor fəza modelinin hazırlaması ilə şöhrət qazanmış Gerard Saltonun (1927-1995) da xidmətləri olmuşdur. O, məlumat ötürülməsini “məlumat axtarışı” məfhumu ilə xülasə etmiş və bunu kompüter sahəsinə daxil etmişdir. Salton, eyni zamanda, informasiya axtarışı dərsini kompüter ixtisası tələbələrinin dərslərinə salınmasına səbəb olmuşdur.

Karol Kultau (ing. Carol Collier Kuhlthau ( 1937)) istifadəçinin nöqteyi-nəzərindən informasiya axtarışı üzrə araşdırma aparmışdır. O, məlumat axtarışını tətbiqi baxımdan altı mərhələdə təqdim etmişdir: prosesə başlamaq, seçmək, axtarış, mərkəzləşmiş struktur, toplamaq və tamamlayıb təqdim etmək [1, s.366, 337].

1986-cı ildə Sperber və Vilson psixologiyaya bağlı nəzəriyyə irəli sürmüşdür. Bu nəzəriyyə insan münasibətləri sahəsində və dinləyicilər üçün eşidilənlərin aktuallığı kontekstində təqdim olunsa da, informasiya sistemləri axtarışına da müəyyən qədər bağlıdır. Sperber nəzəriyyəsinin əsası odur ki, hər mükalimədə bir insanın söylədiklərinin şərhi dinləyənin zehnində artıq mövcud olan fikirlər toplusuna həmin şəxsin söylədiyi fərziyyələrin və ya fikirlərin əlavə olunmasıdır. Bu əvvəlki “kontekst” adlanır və dinləyicinin həmin andakı fikirlərini ehtiva edən psixoloji strukturdur. İnsana təqdim edilən hər hansı yeni fikir və ideya onun psixoloji fikirlərini dəyişə bildiyindən kontekst danışan söhbətinə davam etdikcə dəyişən bir dinamik vəziyyətə malikdir. Bu nəzəriyyəyə görə, təsvirin “kontekstlə” uyğunluq dərəcəsi bu təsirin dərəcəsindən asılır.

Samuel C.Bradford (1878-1948) biblioqrafik tədqiqatlar üçün qanun (bibliometriya) yaratmışdır. O, kimya ixtisası üzrə təhsil almışdır. Bradfordun qanunu dərc olunan məqalə və nəşr əsərlərini özündə ehtiva edən sənədlərin təlhilinə əsaslanmışdı. Nəşriyyatda hər elm sahəsi üzrə nəşriyyat işində tanınan bir qrup olur ki, ən böyük iş onların üzərinə düşür. Bu qanunauyğunluğu özlüyündə kəşf edən tədqiqatçı onun əsasında informasiyanın paylanması qanununun əsasını qoymuşdur. Onun bu qanunu yaratmaqda hədəfi kitabxanalara məxsusi (fərdi) mövzularda düzgün nəşrləri seçmək üçün kömək etmək olmuşdur. Bradford bütün ömrünü kitabxanalarda keçirmişdir və kitabxanaşünaslıq sahəsində böyük xidmətləri göstərmişdir. Bu qanunun kəşfi də onun kitabxanalardakı fəaliyyətinin nəticəsi olub.

Dilçi alim və psixoloq George Kingsley Zipf (1902-1950) dilçilik və statistika nəzəriyyələrindən insan münasibətlərində istifadə etmiş, ünsiyyət zamanı sözlərin tezliyini araşdırmışdır. Bunun nəticəsində linqivistik, statistik və semantik elementləri bir araya gətirərək Zipf qanunu kimi tanınan sözlərin tezliyi nəzəriyyəsini yaratmışdır.

Kitabxanaşünaslıq sahəsində pedoqoji kitabxanaçılıq nəzəriyyəsini ilk dəfə Con Krist (ing. John M. Crist) 1972-ci ildə yazmışdır. O, kommunikasiya və təhsil prosesini müqayisə edərək belə nəticəyə gəlmişdir ki, məktəb və universitet kitabxanalarının bazası ixtisas kitabxanalarının təlimi və bazası ilə əlaqəlidir.

Çen və Hernon (1982) Yeni İngiltərə (ing. New England) sakinlərinin məlumat axtarışı ilə bağlı apardıqları araşdırmada belə nəticəyə gəlmişlər ki, hər bir insan gündəlik həyatda davamlı olaraq

problemlə qarşılaşır ki, bu problemlərin bir çoxunu məlumat toplamaqla həll etmək olar. Amma bu real informasiya ehtiyacı nadir halda "tələb" ə çevrilir [3, 134]. Əksər hallarda bu, sorğunun düzgün məlumat mənbəyini müəyyən edə bilməməsi, ya orada hansı informasiya təminatçısının olması və ya onlara necə yanaşması ilə bağlı tərəddüdlə əlaqədardır. Hazırki dövrdə insanlar informasiyanı passiv şəkildə seçmə üsulu ilə mənimsəməyə meyllidirlər. Axtarış sistemində elektron və ya digər təsnifat sistemlərinin mürəkkəb strukturu ilə qarşılaşdıqda bacarıqlı tədqiqatçılara ehtiyac yaranır. Ağıllı sistemlərdən səmərəli istifadə üçün elektron axtarış bacarıqlarına malik olan və onlara məlumat əldə etməkdə kömək edən təcrübəli tədqiqatçılara ehtiyac duyulur. Bu səbəbdən, kitabxanaçılar informasiya ehtiyaclarını yaxşı təmin etmək üçün informasiya axtarış bacarıqlarını öyrənməli və informasiya savadına malik olmalıdır.

**Nəticə:** Kitabxanaşünaslıq və informasiya sahəsinin nəzəriyyələşdirilməsi və nəzəri əsasları sahəsində aparılan tədqiqatların əksəriyyətində kitabxanaçılıq sahəsində nəzəri və fəlsəfi yoxsulluq probleminə toxunulur. Yorland (1998) hesab edir ki, kitabxanaşünaslıq və informasiya elmində tətbiqi nəzəriyyələrin az olması açıq bir həqiqətdir. Visinqer (2005) də, hesab edir ki, ya kitabxanaşünaslığın praktik sahələrində nəzəri dəstək yoxdur, ya praktik xarakterli nəzəriyyələr əlaqəli deyil.

Müasir dövrdə fənn sahələrinin ixtisaslaşması və yeni elm sahələrinin meydana çıxması ilə əlaqədar olaraq fənlərarası əlaqə elmin tərəqqisi üçün zəruri hesab olunur. Düşünürük ki, kitabxanaşünaslıq sahəsinin öz nəzəriyyələrini başqa elmlərdən götürməsi kitabxanaşünaslıq sahəsinin nəzəriyyə çatışmazlığından əziyyət çəkdiyi düşüncəsi yaratmamalıdır. Əksinə, elm mühitində bu elm sahəsi ilə digər elm sahələri arasında mübadilə və əlaqənin güclənməsinə səbəb olan fənlərarası prosesə təşviq edilməlidir. Yeni elm sahəsi olan kitabxanaşünaslıq elminin inkişafı üçün kitabxananın və informasiya elmləri mütəxəssislərinin digər elm sahələrinin mütəxəssisləri ilə birgə əməkdaşlığına səy göstərilməlidir.

Bütün ixtisaslar fənlərarası qarşılıqlı əlaqədədir, bu səbəbdən, onlara məhdud çərçivədə yanaşmaq düzgün olmaz. İnsanla bağlı olan hər bir elm sahəsi digərindən asılıdır. Hətta mühəndislik və tibb kimi dəqiq elmlər də digər fənləri və mövzuları nəzərə almadan mətləbinə çatmaz və əlaqəli bilikləri inkişaf etdirə bilməz.

## Ədəbiyyat


1. Kuhlthau Carol C. İnside the search process: İnformation Seeking from the User's Perspective. - Journal of the American society for information science. - June 1991. pp. 361-371
2. Library science
https://www.britannica.com/biography/Melvil-Dewey
3. پرتو، پردیس. گلتاجی، مرضیه. ماهیت میان رشته ای علوم کتابداری و اطلاع رسانی. فصلنامه مطالعات میان رشته ای در علوم انسانی. دوره سوم، شماره 3-2، 1390. ص 142-121.